Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi



**AYLIQ BÜLLETEN | 01.12.2019**

# UNİVERSAL ÖYRƏNMƏ DİZAYNI

BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına əsasən universal dizayn "əşya, şərait, proqram və xidmətlərin adaptasiya və ya xüsusi dizayn zərurəti olmadan bütün insanlar üçün istifadəyə maksimum dərəcədə yararlı dizaynı" kimi tərif olunur. Universal dizayn yalnız fiziki mühitlə əlaqəli deyil. Bura həmçinin əlilliyi olan şəxslərə şərait yaradan yardımçı cihazlar və dəstəkləyici sistemlər daxildir. İnklüziv təhsildə universal dizayn dedikdə isə sinifdə şagirdlər üçün təmin edilən təlim mühiti nəzərdə tutulur.

Siniflərdə dərs zamanı müəllimlər universal öyrənmə dizaynının tətbiqində bu tövsiyələri nəzərə almalıdır.

Birinci tövsiyə siniflərdə məqsədə uyğun məkan hazırlamaqdır. Müəllim ilk olaraq verilən dərs üçün təlim hədəfini müəyyən etməli, daha sonra təlim mühitini müxtəlif məşğələlərin məqsədlərinə uyğun olaraq dəyişməlidir ki, uğurlu nəticə əldə edə bilər. Dərsin mövzusuna uyğun olaraq əgər cütlərlə iş və ya qrup işi tələb olunursa, sinifdəki parta, stul və digər əşya-ların məqsədəuyğun qaydada yerləşməsinə fikir vermək tövsiyə edilir.

Müəllimlər üçün ikinci tövsiyə hər kəs üçün əlçatan resurs sahələrinin təmin etməkdir. Resurs sahələri şagirdləri əyani vəsaitlər və vasitələrlə təmin edir. Buna nümunə olaraq sinifdə kitab, jurnal, lüğət, kalkulyator, yazı vasitələri, qrafik təsvirlər və həmçinin, müxtəlif növdə rəngli kağızlar qoyulan sahələr ola bilər.



Üçüncü tövsiyə dərs zamanı siniflərdə rəqəmsal resurs və materiallardan istifadədir. Nəzərə almaq lazımdır ki, rəqəmsal resurslar ənənəvi çap materiallarından daha çevikdir və bir çox baxımdan faydalıdır. Bu resurslar vasitəsilə mətni ucadan səsləndirmək, daha rəngli və böyük

ölçülü şəkillər göstərmək mümkündür. Bundan başqa, rəqəmsal resurslar vasitəsilə mətnin lazımi yerlərini işarələmək, ona illüstrativ təsvirlər vermək, video-çarxlar göstərmək, audio materiallardan istifadə etmək də mümkündür.

Dərs zamanı yalnız nəticəyə deyil, təlim prosesinin özünə də əhəmiyyət vermək lazımdır. Bir çox hallarda təlim nəticələrinin uğurlu olması təlim prosesindən asılı olur. Prosesin düzgün qurulması ilə şagirdlər uğurlu nəticəyə yönəldilir. Təlim nəticəsi müəyyən mənada biliyin göstərici hesab edilə bilər, lakin şagirdlərin bir şəxsiyyət kimi yetişməsi üçün təlim prosesinə əhəmiyyət vermək lazımdır.

Dərsin gedişatında şagirdlərin məzmunu yaxşı anlaması və təlim məqsədlərinə çata bilməsi üçün bir çox metod və yanaşmalardan istifadə edilə bilər. Müəllim şagird ehtiyaclarının çoxşaxəli olduğunu nəzərə almaq və təlim prosesində alternativ məşğələlər təklif etməklə universal öyrənmə dizaynını uğurla tətbiq edə və təlim məqsədlərinə nail ola bilər.

Universal öyrənmə dizaynı müəllimlərə hazır resept təqdim etmir. Bu konsepsiya bütün şagirdlərin öyrənməsi üçün çoxsaylı vasitələrdən istifadə edilməsində və bərabər təlim mühitinin hazırlanmasında müəllimlərə kömək edən bir yanaşmadır.

# Universal Öyrənmə Dizaynının Prinsipləri




**Təqdimatın çoxsaylı vasitələri**

Bu prinsipə əsasən məzmunun hazırlanmasına və təqdimatına çevik yanaşmalı, təlimin səmərəli olması üçün müxtəlif təlim metodu və strategiyalardan istifadə olunmalıdır. Bu məqsədlə müəllim həssas müşahidə apararaq hər bir şagirdin özünəxas öyrənmə yollarını aşkarlayıb ona uyğun metod seçir. Universal Öyrənmə Dizaynının bu prinsipi xüsusilə ona görə zəruridir ki, şagirdlərin ehtiyaclarının nəzərə alınması və buna uyğun metodun seçilməsi ilə şagird üçün bir maneə azalmış olur.




**Fəaliyyət və özünüifadənin çoxsaylı vasitələri**

Bildiyimiz kimi, təlimin məqsədi şagirdlərə sadəcə bilik və bacarıq öyrətmək deyil. Əldə edilmiş bilik və bacarıqları nümayiş etdirmək və onlardan istifadə edə bilmək üçün şagirdlərə geniş imkanlar yaradılmalıdır. Öyrənmə üsulları kimi şagirdlərin özünüifadə üsulları da fərqli ola bilər. Şagirdlərdən bəziləri danışaraq, bəziləri yazaraq öz fikrini daha yaxşı bildirə bilər. Bunları nəzərə alaraq şagirdlərə özünüifadə üçün imkanlar yaradılmalıdır. Qeyd etdiyimiz bu prinsip, şagirdə nə başa düşdüyünü nümayiş etdirmək imkanı verir və müəllimə şagirdin bilik və bacarıqlarını yoxlamaqda da kömək edir.




**Dərsə cəlb olunmanın çoxsaylı vasitələri**

Şagirdlərin dərsin məzmununu yaxşı mənimsəməsi üçün onların təlim prosesinə maraq göstərməsi vacibdir. Bu məqsədlə müəllim onları dərsə motivasiya etmək üçün rəngarəng və çevik yanaşmalardan istifadə etməlidir. Dərsi prosesinin faydalı olması üçün motivasiyanın düzgün qurulması mühüm şərtlərdən biridir. Çünki motivasiya şagirdlərdə idrak prosesini hərəkətə gətirir, onları prosesə fəal cəlb olunmağa təşviq edir.

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

# “Fərqliyik, Bərabərik” adlı inklüziv tədbir




***Beynəlxalq Əlillər Gününə həsr edilmiş “Fərqliyik, Bərabərik!” adlı uşaq festivalı baş tutub***

Heydər Əliyev Fondu, “Regional İnkişaf” İctimai Birliyi, Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi, BMT-nin Uşaq Fondu və BMT-nin İnkişaf Proqramının təşkilatçılığı ilə dekabrın 3-də Heydər Əliyev Mərkəzində Beynəlxalq Əlillər Gününə həsr edilmiş uşaq festivalı keçirilib.

Tədbirin məqsədi əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına, əlilliyi olan və olmayan uşaqların birgə fəaliyyətlərinin təbliğinə yönələn festival, eyni zamanda, onların istedad və qabiliyyətlərini üzə çıxarmaq, inklüziv cəmiyyətin yaradılmasında inklüziv təhsilin vacibliyini vurğulamaq olub.

Tədbirin başlanğıcında “Regional İnkişaf” İctimai Birliyi və BMT-nin Uşaq Fondunun əlilliyi olan gənclərin həyat hekayələrindən və inklüziv təhsilin əhəmiyyətindən bəhs edən videoçarxı nümayiş etdirilib, “Bərabərik!” inklüziv səhnəciyi, eşitmə və danışma əlilliyi olan uşaqlardan ibarət “Uşaq teatrı” və “Vokal” dərnəyinin üzvlə-rinin ifasında “Dostluq” mahnısı təqdim olunub. Eyni zamanda festival çərçivəsində əlilliyi olan və olmayan uşaqların iştirakı ilə müxtəlif əyləncəli və maarifləndirici proqramlar, əl işlərindən ibarət sərgi də təqdim edilib.







Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə
Avropa İttifaqı
tərəfindən
maliyyələşdirilir

Regional İnkişaf İctimai Birliyi



# İnklüziv cəmiyyətin formalaşması və inkişafında inklüziv təhsilin əhəmiyyəti" mövzusunda esse müsabiqəsi keçirilib

Avropa İttifaqının maliyyə dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB) tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində "İnklüziv cəmiyyətin formalaşması və inkişafında inklüziv təhsilin əhəmiyyəti" mövzusu üzrə elan edilmiş esse müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Müsabiqəyə təqdim edilən 62 esse arasından şərtlərə cavab verən - ideya, məzmun, üslub və tərtibat baxımından fərqlənən 3 ən yaxşı yazı qalib seçilib. Qaliblərdən 1-ci yeri Şamaxı şəhər, M.Hadi adına 9 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Fəridə Xəlilova, 2-ci yeri Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, Biologiya üzrə fəlsəfə elmləri doktoru Bəsti Əsədova, 3-cü yeri isə Laçın rayon Qozlu kənd M.Səfərov adına tam orta məktəbin ingilis dili müəllimi Ayşən Dünyamalıyeva qazanıb.

# ADPU-da tələbələr üçün inklüziv təhsil üzrə təlimlər keçirilir

Avropa İttifaqının maliyyə dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB) tərəfindən icra olunan "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində noyabr ayından etibarən, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 4-cü və 5-ci kurs tələbələrinə inklüziv təhsil mövzusunda təlimlərə başlanılıb.

Bakı, Şəki, Quba, Ağcabədi, Şamaxı və Cəlilabadda noyabr ayı ərzində keçirilən inklüziv təhsil üzrə təlimlərdə 700 ADPU tələbəsi iştirak edib.Ümumilikdə isə cari ilin dekabr ayınadək 1135 ADPU tələbəsinin təlimlərdə iştirakı nəzərdə tutulub.

Xatırladaq ki, "İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları"nın ADPU-nun təhsil proqramlarına inteqrasiyası nəticəsində 2019-cu tədris ilindən etibarən ADPU-nun 3-cü kurs tələbələrinə yeni məzmunda "İnklüziv təhsil" fənni keçirilir.



# NÜMUNƏVİ TƏCRÜBƏ

*Bülletendə təqdim olunan yeni rubrikada ümumtəhsil məktəblərinin müəllimlərinin inklüziv təhsil sahəsində nümunəvi təcrübələri mütəmadi olaraq təqdim olunacaqdır.*



*Gülbəniz Əhmədova*

*Şəki şəhər 11 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimməsi*

Mən 2018-2019-cu tədris ilində növbəti birinci sinfi götürdüm. Bu sinfim əvvəlki siniflərimdən fərqlənirdi. Çünki sinfimdə iki autizm sindromlu əkiz qardaşlar vardı – Ayxan və Uluxan qardaşları.

Valideyn sinfə uşaqları gətirəndən mənə bircə xahiş etdi: "Sizdən bircə xahişim budur ki, övladlarım yoldaşları kimi parta arxasında nümunəvi şagirdlər kimi əyləşə bilsinlər."

Ayxan Uluxana çətinliklə də olsa fikrini ifadə edə bilirdi. Uluxan heç danışa bilmirdi. Ancaq qarşıma məqsəd qoymuşdum ki, onun nitqinin inkişaf etməsinə nail olacam. Məqsədimə çatmaq üçün əlbəttə ki, valideynləri də inandırmalıydım ki, hər iki uşaq yazıb oxumağı bacaracaq. Valideynlərdən xahiş etdim ki, verilən tapşırıqları tam yerinə yetirmək üçün uşaqları təşviq etsinlər. Sinifdə uşaqlardan nə tələb edirdimsə, Ayxan və Uluxandandan da eynisini tələb edirdim. Onlar da əllərindən gələni edirdilər.

Riyaziyyat dərsində Uluxana barmaqları ilə hesablamağı öyrədirdim. İlkin olaraq bu onun üçün çətin idi. Anacaq çalışırdı ki, hesablasın. Anasından evdə necə hesabladığını soruşanda anası çöplərlə işlədiyini dedi. Mən anasına təklif etdim ki, evdə də barmaqları ilə hesablasın. Anacaq anası Uluxanın barmaqlarını işlədə bilmədiyini dedi. Mən dərs zamanı Uluxana barmaqları ilə saymağı necə öyrətdiyimi və onun necə saydığını video çəkilişlə qeydə alıb anasına göstərdim. Təbii ki, ana çox məmnun qaldı və uşaqlarının gələcəyi ilə bağlı müsbət fikirlər yarandı. Artıq hər iki qardaş yazır, oxuyur və sinfə tam adaptasiya olublar. Uluxan fikirlərini sərbəst şəkildə ifadə edir. Suallara cavab verməyə çalışır. Onların inkişafı aydın şəkildə görünür.

Mən təcrübəmdə gördüm ki, müəllim inklüziv təhsilə inanarsa, səriştəsini artırmaq üçün öz üzərində işləyərsə və valideynlərlə düzgün əməkdaşlıq edərsə bütün uşaqlar uğur qazana bilər.



Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.